## MƏNTİQ

UOT 16

**Əlikram TAĞIYEV**
*fəlsəfə.ü.e.d., professor, şöbə müdiri*
*AMEA Fəlsəfə İnstitutu*

# NEOPOZİTİVİZM: MƏNTİQİ VƏ LİNQVİSTİK İSTİQAMƏTLƏR*

Müasir Qərb fəlsəfəsində dil və məntiq məsələlərini öyrənən bir sıra fəlsəfi cərəyanlar mövcuddur. Lakin onların hamısını neopozitivizm bayrağı altında birləşdirmək olar.

**Pozitivizm** fəlsəfi cərəyanının banisi Oqyüst Kont (1796-1857) sayılır. Bu cərəyan ona görə pozitivizm adlanır ki, o, pozitiv biliyi digər fəlsəfi-nəzəri quraşdırmalardan üstün tutur. Onlar öz fəlsəfi təlimlərinin əsl sağlam fikir fəlsəfəsi olduğunu qəbul edir və bu cərəyanı istər metafizikaya və istərsə də obyektiv idealizmə (Hegelin mütləq ideyasına) qarşı qoyurlar. V.İ.Lenin "Materializm və empriokritisizm" (1908) əsərində bu cərəyana subyektiv idealizmin bir növü kimi baxmışdır. Onlar abstrakt əqli nəticələrə deyil, ancaq faktik olan müsbət biliyə əsaslanırlar. Pozitivistlərə görə onların ideya siyasi görüşləri həm materializmdən, həm də idealizmdən yüksəkdə dayanır. Onlar fəlsəfənin əsas məsələsinin həllindən yan qaçır, David Yumun aqnostisizmini dirçəltməyə çalışırlar.

***Birinci pozitivizmin yaxud ilk pozitivizmin*** nümayəndələri O.Kont, H.Spenser və C.S.Mill idilər. M.F.Axundzadə bu sonuncu filosofun fəlsəfəsinə xüsusi bir məqalə həsr etmişdi (Bax: M.F.Axundov "C.S.Mill azadlıq haqqında").

Onların dialektikaya və materialist fəlsəfəyə qarşı apardıqları mübarizəni hələ vaxtilə K.Marks və F.Engels də ciddi şəkildə tənqid etmişlər. Pozitivizmin beşiyi başında Oqyüst Kontın müəllimi olmuş, tənqidi utopik sosializmin banilərindən biri olan Sen-Simonun ideyaları dayanır. Sen-Simonun (1760-1825) ideyaları aşağıdakılardan ibarətdir:

- elmin pozitiv xarakterinin qoyuluşu;
- tarixin öyrənilməsinə geniş fəlsəfi yanaşmanın zəruriliyi;
- feodalizmlə kapitalizmin qarşıdurması;
- yeni sənaye cəmiyyəti ideologiyasının əsaslandırılması.

Oqyüst Kont "Pozitiv fəlsəfə kursu" (1830-1842) əsərində fikrini əsasən metafizikaya deyil, pozitiv biliyə, təcrübə və praktikada yoxlanılan rasional tətbiq olunan biliyə verir. Fəlsəfənin predmetini o ayrı-ayrı elmlərin arasında olan əlaqələrlə müəyyən edirdi. Birinci pozitivizmin görkəmli nümayəndələrindən olan H.Spenserə görə dil bu əlaqələrin əsasında durur. H.Spenserin fəlsəfəsinin mərkəzində "dərkolunmazlıq" dayanır. Dinlə elmin fərqi ondadır ki, din əbədi dərkedilməz olan ilkin səbəbi, elm isə dərkolunmaz təbiət hadisələrini öyrənir. Əslində dinlə elm bir-birinə zidd deyillər.

***Pozitivizmin ikinci mərhələsi*** Ernest Max və Rixard Avenariusla bağlıdır. Bu mərhələni ***empriokritisizm və ya maxizm*** də adlandırmaq olar. V.İ.Lenin adı yuxarıda çəkilən əsərində bu filosofları boşboğaz adlandırmışdır.

***Pozitivizmin üçüncü mərhələsi*** - neopozitivizm adlanır. Onu Vyana dərnəyinin üzvləri Moris Şlik, Rudolf Karnap və b. yaratmışlar. Neopozitivistlər bir sıra elm sahələrinə də nüfuz etməklə özlərini çox vaxt neytral saymış və fəlsəfənin əsas məsələsini mənasız sayaraq özlərinin ondan yüksəkdə dayandıqlarını iddia etmişlər. Fəlsəfəni *məntiq və dilçiliklə* əvəz edirlər və ona görə də *məntiqi pozitivizm və yaxud linqvistik pozitivizm* də adlanırlar. Q.Feyql

* Məqalə fəlsəfə ü.e.d. Akif Bünyadov tərəfindən çapa məsləhət görülüb.

fəlsəfəni "xəstəlik" adlandırmış və ondan müalicəni məsləhət görmüşdür. R.Karnap isə fəlsəfəni ləğv etməyi tövsiyə edir, onun yerinə isə ***"elm məntiqini"*** gətirir. "Elm məntiqi" deyəndə əsasən formal məntiq başa düşülür, daha doğrusu fəlsəfəyə aid olan çox şeylərin oradan çıxarılmasını və onların yerinə cümlələrin arasında məntiqi əlaqələrin və terminlərin məntiqi təhlilini qoyurlar. Bu cəhətdən onlar praqmatizmə və semantik fəlsəfəyə yaxınlaşırlar. Sovet dövründəki tədqiqatlarda bu cərəyan subyektiv, idealist, lazımsız bir elm kimi tənqid edilmişdir. Məsələn, V.İ.Lenin neopozitivizmlə maxizm və praqmatizm arasındakı fərqləri "cüzi, onuncu dərəcəli fərqlər" kimi qiymətləndirmişdir. Marksist-leninçi ideologiya isə onların hər ikisinə qarşı barışmaz olmuşdur. Onlara görə bu fəlsəfi cərəyanların kökündə Keşiş Berklinin subyektiv idealizmi durur. 1925-ci ildə Vyana Universitetinin Təbiət fəlsəfəsi kafedrasının müdiri Ernest Maxın vəfatından sonra Moris Şlik onu əvəz etdi. Moris Şlik və onun ətrafına topladığı bir dəstə gənc tədqiqatçı elmdə və fəlsəfədə çevriliş etməyi bir məqsəd olaraq qarşılarına qoydular. Onlar fəlsəfə tarixinə 1922-ci ildə "Vyana" dərnəyi adı ilə daxil oldular. Dərnəyə M.Şlik, R.Karnap, O.Neyrat, Q.Feyql, V.Dubislav və b. daxil idi. Faşistlər Berlində və Avstriyada hakimiyyətə gələndən sonra onlar ABŞ-a və Böyük Britaniyaya mühacirət etdilər və öz ideyalarını da bu ölkələrdə yaydılar. Vyana dərnəyinin fəlsəfi görüşləri məntiqi pozitivizm və ya neopozitivizm (üçüncü pozitivizm) adını aldı. Onlar O.Kontun, E.Maxın, B.Rasselin, A.Uaytxedin və b-nın fəlsəfi-metodoloji ideyalarını davam etdirdilər. Dərnək üzvləri məntiq elminə, eləcə də fəlsəfəyə L.Viqtenşteynin "Məntiqi-fəlsəfi traktat"larında irəli sürülmüş dil məntiqi ideyaları prizmasından yanaşırdılar. M.Şlik "Fəlsəfədə çevriliş" adlı əsərində yazırdı ki, fəlsəfə elm deyildir. L.Viqtenşteyn "Tractutus logica philosoficus" əsərində məntiqi pozitivizmin aşağıdakı prinsiplərini irəli sürdü:

- dil təfəkkürün sərhəddidir;
- bir dünya mövcuddur: faktlar və hadisələr;
- onlar müxtəlif təbiət elmləri tərəfindən təsvir olunurlar;
- cümlə - dünyanın xəritəsidir, çünki dünya ilə bir məntiqi formadadır;
- əgər dünya məntiqi olmasaydı, onu bir cümlə kimi təsəvvür etmək olmazdı;
- mürəkkəb cümlələr faktlardan təşəkkül tapmış elementar faktlardan ibarətdir.

XX əsrin 20-30-cu illərində Vyana məktəbi neopozitivizm adı altında "fəlsəfədə inqilab" missiyasını öz üzərinə götürdü. Özlərinin bütün fəaliyyətini "metafizikaya" qarşı mübarizəyə həsr edən neopozitivistlər həm də "mütləq ideya" və ənənəvi fəlsəfəyə qarşı da müharibə elan etdilər. Onlar fəlsəfəni "elmi etmək" (elmləşdirmək) xəttini götürmüşdülər. M.Şlik Viqtenşteyni təkrar edərək yazırdı: "Dünya özündə dünya deyil, dilimiz üçün dünyadır".

**Praqmatizm** – ABŞ filosofu Ç.Pirs tərəfindən elan edilmişdir (1878). ABŞ-da, İngiltərədə və qismən də Fransada və İtaliyada yayılmışdır. Praqmatizmin banilərindən biri olan U.Ceyms 1907-ci ildə "Praqmatizm" əsərini yazır. Burada o, O.Berklinin, E.Maxın və Avenariusun subyektiv idealizmini daha da inkişaf etdirir. Ona görə anlayışlar və ideyalar duyğuların müxtəlif təsvir üsullarıdır, təfəkkür obyektiv gerçəkliyin inkişafı deyildir. O, məntiqdən əl çəkməyi məsləhət görürdü, deyirdi ki, insanlar rasional dünyada yaşamağa adət etmişlər və onlar ondan əl çəkməlidirlər. Praqmatizmə görə bizim üçün faydalı nədirsə, o da həqiqətdir. Praqmatizmin digər bir nümayəndəsi C.Dyui "Fəlsəfənin yenidən qurulması" kitabında fəlsəfəni məntiqdən və başqa elmlərdən ayırmağa, bir növ onu "təkləməyə" çalışırdı. C.Dyui həm də sosial demokratiyanın görkəmli nümayəndəsi idi və marksizmə qarşı mübarizə aparırdı. C.Dyui fəlsəfəni reallıqdan və idrak problemlərindən uzaq durmağı məsləhət görürdü. C.Dyui fəlsəfəni elmdən də ayırmağı tələb edirdi. O, praqmatizmi instrument adlandırırdı. Təfəkkür anlayışları adamın faydalanması üçün quraşdırılmış isntrumentlər, alətlərdir. Anlayışlar hər bir kəs üçün müxtəlif ola bilər, ona görə də onlar obyektiv deyillər. Daha doğrusu, "subyektsiz obyekt yoxdur". Bu da Berkli, Fixte, Max, Avenarius ideyalarından

qidalanırdı. İnsanlar anlayışları, mühakimələri, əqli nəticələri özlərinə faydalılıq dərəcəsinə görə uydurmuşlar, onlardan öz rahatlıqları üçün bir instrument kimi istifadə edirlər. Onlar təfəkkürü obyektiv reallığın insan beynində inikası kimi anlamaqdan uzaqdırlar, məntiq biolojinin davamıdır. Praqmatizmin idrak nəzəriyyəsi aqnostisizmə əsaslanır. Onlara görə ideyalara uyğun gəlməyən heç bir reallıq yoxdur. Dünyada mövcud olan hər bir şey, hər hansı bilik təfəkkür prosesində yaranır, bizdən asılı olmayan dünya haqqında heç bir həqiqi bilik yoxdur. Con Dyui “İdrak və dərk olunan” əsərində göstərir ki, mövcud reallığın təfəkkürdən kənarda obyekti yoxdur, “mövcud olmaq – faydalanmaq deməkdir”. Müqayisə et: Berkli-esse est percipi; R.Dekart: Cogito ergo Sum “faydalı olan hər şey həqiqətdir”. Müqayisə et: ağlasığan hər şey gerçəkdir, gerçək olan hər şey ağlasığandır (əksinə). Həqiqət obyektiv deyil, relyativdir, subyektivdir, subyekt isə faydalılığına görə həqiqətdir. Faydalı deyilsə yalandır. Sovetlər dövründə praqmatizmin cəmiyyət və sosial nəzəriyyəsi (xüsusilə elita nəzəriyyəsi) Sidney Huk da daxil olmaqla ciddi tənqid edilmişdi. S.Huk deyirdi ki, ola bilsin demokratlar qalib gəlsin, amma demokratiya heç vaxt qalib gələ bilməz.

**Semantik fəlsəfə cərəyanı** dillə təfəkkürün münasibətləri baxımından çox maraqlıdır. Sözün məna verən hissəsi semantikos, məna adlanır. Bu cərəyanın nümayəndələri onu həqiqi elm, insanlar üçün sığınacaq yeri hesab edirlər. Termin ilk dəfə olaraq 1865-ci ildə ingilis dilində qanunlar əsasında gələcəyi görmək təlimi kimi işlənmişdir. Sonralar Fransız Mişel Brazulin əsərlərində (“Semantika”-1897) əsaslandırılmışdır. Cərəyanın iki qrupu vardır. Bir qrup məntiqin, qnoseologiyanın problemlərini işləyir və onların mətbu orqanı “Philosophy of science” jurnalıdır (Elm fəlsəfəsi). İkinci dəstə isə sosiologiya, pedaqogika, siyasət, etika məsələlərilə məşğul olurlar. Onlar ETC adlı və s. beynəlxalq semantiklər ittifaqının jurnalını buraxırlar. Adı simvolikdir və nitqin qeyri-müəyyənliyini bildirmək üçündür. Onlar məntiqi pozitivizmlə çox yaxındırlar. Fərq ondan ibarətdir ki, məntiqi pozitivizm dilin və sözlərin formal quruluşunu təhlil etdiyi halda, semantiklər sözlərin və cümlələrin əhəmiyyətli olub olmaması haqqında fikir yürüdürlər. Semantik S.Çeyz vəzifələrini belə müəyyən edirdi:

- ayrı-ayrı fərdlərin düzgün fikirləşməsinə kömək göstərmək;
- fərdlər və qruplar arasında ünsiyyəti təkmilləşdirmək;
- normal olmayan ruhi halları sağaltmaq.

(The proper study of mankind. Jondon, 1950, p. 34). Semantiklər fəlsəfənin əsas məsələsini inkar edir yaxud ona nə “hə”, nə də “yox” deyirlər. Onlara görə dil şərti işarələrdən ibarətdir və heç bir obyektiv gerçəkliyi əks etdirmir. K.Marks deyirdi ki, dil fikrin bilavəsitə gerçəkliyidir. Təfəkkür isə obyektiv reallığın, ictimai varlığın insan beynində inikasıdır. Sözlər müxtəlif dillərdə müxtəlifdir. Məsələn: su вода, water, ab və s. amma mahiyyəti birdir: $H_2O$.

İnsanların bir-birlərini başa düşməmələrinin səbəbi sözlərin müəyyən anlayışları düzgün ifadə etməməsidir. Məsələn: istismar, pul, kapitalizm, sosializm, nasionalizm, müharibə və s. Semantiklərə görə dil təfəkkürlə vəhdətdə deyil. Dil sözlərdən ibarətdir, onlar isə mənaca müxtəlifdir və təfəkkürlə heç bir əlaqəsi yoxdur. Onlar öz ideyalarını ictimai həyata da belə tətbiq edirlər və iddia edirlər ki, istismar və s. insanların “söz əsiri” olmalarından irəli gəlir. Məsələn, semantik Hops yazır ki, insanların bədbəxtliklərinin əksəriyyəti insanların sözləri düzgün işlətməməsindən, bir-birlərini anlamamalarından irəli gəlir. Dili təkmilləşdirmək yolu ilə bu problemi aradan qaldırmaq olar. Bunun üçün isə ən yaxşısı təkmil dillərdən (məsələn, ingilis dilindən) istifadə olunmasıdır. Digər dil imkanları daha zəif olan milli dillərdən əl çəkilsin. Sovet dövründə semantik fəlsəfə mürtəce, zərərli bir cərəyan kimi təqdim olunurdu. Hazırda isə onun bu ikili xüsusiyyəti ilə birlikdə öyrənilməsi imkanı yaranmışdır. Azərbaycan Respublikasında müasir burjua fəlsəfi cərəyanlarının, eləcə də semantik fəlsəfənin ən yaxşı tədqiqatçısı BDU-nun professoru, fəlsəfə üzrə elmlər doktoru Fərman İsmayılovdur.

**Elm fəlsəfəsi.** Bu da əslində neopozitivizmin bir qolu olub özündə 4 mərhələni birləşdirir:

- A.Puanqaranın "Konvensionalizm" (müqavilə) nəzəriyyəsi;
- II və III pozivitizm cərəyanları;
- postpozitiv fəlsəfəsinin nümayəndələri K.R.Popper (1892-1994);
- T.S.Kun (1922-1996), P.Feyerabend (1924-1997), J.Jakatos (1922-1974).

Onların tədqiqat sahələrinə bunlar daxildir:

- elmdə işarələrin, simvolların rolu (semiotika);
- nəzəri aparatın elmin empirik bazasına münasibəti;
- elmin riyaziləşdirilməsi və formalaşması.

"Məntiqi empirizm" konsepsiyasına bunlar daxildir:

1.Tomas Samuel Kun – elmə "paradiqma" anlayışını gətirmişdir. Elmi inkişafın əsasını paradiqmaların bir-birini əvəzləməsi təşkil edir. Məsələn, Qeosentrik (Ptolemey) nəzəriyyəsnin Heliosentirik nəzəriyyəyə keçməsi, Nyuton-Mexanikasının-Eynşteynin nisbilik nəzəriyyəsinə keçməsi və s. Paradiqma müəyyən bir problemin qarşıya qoyulması və onun faktlar və s. əsasında həll edilməsidir.

2.Pol Feyerabendin "epistemoloji anarxizm" konsepsiyasına görə elm üçün heç bir vahid paradiqma yoxdur. Burada "hər şey mümkündür" prinsipi əsas rol oynayır.

3.K.Raymond Popperin "tənqidi rasionalizm" konsepsiyasına görə hər bir elmi bilik hipotetikdir. Verifikasiya – falsifikasiya olur. Elmi metod – sınaq və səhvlər metodudur.

**Analitik fəlsəfə və yaxud üzvlərinin** adlandırdığı kimi **sağlam fikir fəlsəfəsi** elm və anlayış fəlsəfəsidir. Üzvləri C.E.Mur (1875-1958), B.Rassel (1872-1970), J.Viqtenşteyn (1889-1951), Q.Freyql (1848-1925) olan bu fəlsəfi cərəyan əslində pozitivizmin 3 mərhələsinin neopozitivizm adlanan cərəyanını təşkil edir. Onu məntiqi pozitivizm və linqvistik pozitivizm adlandırırlar. Onlar ən çoxu təhlillə əlaqədar olduğu üçün analitik fəlsəfə adını almışdır. Burada əsas məsələ dillə gerçəkliyin, təfəkkürün gerçəkliyə uyğunlaşdırılmasıdır. Bu cərəyanın nümayəndəsi Q.Freyql "məntiqi semantika" deyilən bir kosepsiya ilə çıxış edir. B.Rassel isə "məntiq atomizm" ideyasını irəli sürmüşdür. O deyirdi:" Hər bir həqiqi problem fəlsəfi təhlilin problemidir". Müəllifin iki böyük əsərində: "Məntiqi fəlsəfi traktat" (1923) və "Fəlsəfi tədqiqatlar"da (1953) məntiq və linqvistika problemləri təhlil edilmişdir. Birinci kitabda "məntiqlə təhlil", ikincidə isə "ideal dil" konsepsiyasını irəli sürmüşdür. O, deyirdi: "Hər nə demək mümkündürsə, deyilə bilər. İfadə edilməsi mümkün olmayanlar haqqında isə susmaq lazımdır".

**Strukturalizm.** Dillərin inkişafında iki mühüm istiqamət var.

1.Dillərin struktur elementlərinin inkişafı, yəni ayrı-ayrı dilləri struktur elementlərinə ayırıb təhlil etmək. 2. Dillərin funksional inkişafı məsələsi, yəni dillərin funksiyalarının şaxələnərək inkişaf etməsi. **Birincilər** əsasən fəlsəfəyə və məntiqə, eləcə də dilçiliyə, **ikincilər** isə sosiologiya, sosial dilçiliyə, dil siyasətinə, sosial həyata aiddir. Klod Levi Stross "Struktur autropologiya" (1958) əsərində dildə əsas yeri leksikaya deyil, struktura verir. Yazır ki, dil unsiyyətin mümkünlüyünü təminedən əməliyyatlar çoxluğudur. O, öz tədqiqatlarında Freydin və Karl Yunqun psixika analizinə əsaslanır, miflərlə dillər arasında olan əlaqələri öyrənir. İbtidai xalqların dil və mədəniyyətini, mifologiyasını öyrənən alim bəzi xalqların dillərində ümumiləşdirmə qabiliyyətinin olmamasını görür. Elə xalqlar var ki, onların dillərində ümumiləşdirici anlayışlar yoxdur. Məsələn, quş əvəzinə ağacdakı quş, çöldəki quş və s. Müasir Qərbin sosiolinqivistik ədəbiyyatında milli dillərin məhdudlaşdırılması çağırışları edilir. Bu da bu gün ölkəmizdə elan olunmuş dillərin və mədəniyyətlərin bərabər inkişafı prinsipilə uyğun gəlmir. Bizdə 2016-cı ildə multikulturalizm ili elan olunmuşdur. Bu da dilindən və dinindən asılı olmayaraq bütün xalqların eyni və sonsuz dərəcədə inkişaf perspektivlərinin movcud olmasını təmin edir. Levi Stross miflərin strukturunu öyrənib bu qənaətə gəlir ki, miflərin

məntiqi ilə elmlərin məntiqi bir-birlərinə uyğun gəlir. O, struktur təhlilin digər humanitar elmlərin arasında da mümkünlüyünü qeyd edir. Jak Jakan (1901-1981) struktur linqvistikanın banisidir. Əsərlərində strukturalizmə və poststrukturalizmə geniş yer verən Mişel Fuko (1926-1984) "Söz və şeylər" (1986) əsərində "biliyin arxeologiyası" ideyasını irəli sürür. Burada problemin mərkəzində 4 mühüm amilin dayandığını qeyd edir: təcrübənin strukturu, discurs, tarixi apriori, epistema.

**Hermenevtika.** Qədim tarixə malikdir. Mənası təfsir, yazıya köçürmə, izah etmə, şərh etmə və s.dir. Dilin qrammatik təhlili, eyhamların açılması, tarixi reallığın öyrənilməsi, simvollar, anlayışlar və s. kimi məsələlər də hermenevtikaya daxildir. XX əsrdən başlayaraq xüsusi tədqiqat sahəsinə çevrilmişdir. Ən böyük nümayəndələri H.Q.Qardamer (1900-2002) və P.Rikerdir (1913-2005). H.Q.Qardamer yazır: "Dil özünü anlamanın gerçəkləşmədiyi universal mühitdir. Bu gerçəkləşmənin üsulu isə izah etmədir, dünyanın dil təcrübəsi mütləqdir, məcazların, ilahi dilinin öyrənilməsi, müqəddəs yazıların sirlərinin açılması və s.dir.

Bütün bu yuxarıda deyilənlər bunu deməyə imkan verir ki, müasir pozitivizmin məntiqə və dilə aid ideyaları böyük elmi maraq doğurur və onların öyrənilməsi zəruridir.

**Açar sözlər:** *neopozitivizm, məntiq, linqvistika, empiriokritisizm, maxizm, elm məntiqi, praqmatizm, semantik fəlsəfə, analitik fəlsəfə, strukturalizm, hermenevtika.*

**İstifadə olunmuş ədəbiyyat**

1. Hegel. Məntiq elmi. Bakı, 2005.
2. Mehdiyev R. Fəlsəfə. Bakı, 2010.
3. Zeynalov M. Fəlsəfə tarixi. Bakı, 2000.
4. Rzayev M. Fəlsəfə tarixi. Bakı, 2011.
5. Винделбанд В. История древней философии. Киев, 1995.
6. İsrafilov M. Məntiq. Bakı, 1997.
7. Tağıyev Ə. Fəlsəfə. Bakı, 2011.
8. Əlizadə A. Antik fəlsəfə tarixi. Bakı, 2016.
9. İsmayılov F. XX əsr Qərb fəlsəfəsi tarixi. II cild. Bakı, 2000.
10. Məmmədov Ə., Paşayeva A. Elmi idrak və onun dünyası. Bakı, 1997.
11. Кулизаде З. Четко-нечеткое постижение логики бытия. Баку, 2017.
12. Маковельский А.О. История логики. М, 1967.
13. Вигтенштейн Л. Логико- философский трактат. М, 1971.
14. Yusifzadə Q. (red). Marksizmədək fəlsəfənin əsas inkişaf mərhələləri. Bakı, 1968.
15. Bəhmənyar Ə. Ət-Təhsil. Bakı, 1999.

**Аликрам ТАГИЕВ**

## НЕОПОЗИТИВИЗМ: ЛОГИЧЕСКИЕ И ЛИНГВИСТИЧЕСКИЕ НАПРАВЛЕНИЯ

**Резюме**

В работе отмечается, что проблемы языка и логики разрабатываются в разных западных философских течениях, которые можно объединить под флагом – неопозитивизма. Здесь даются сведения о начальном и последующих этапах позитивизма, их представителях, отличительных особенностях и месте и роли в современной философии.

**Ключевые слова:** *неопозитивизм, логика, лингвистика, эмпириокритицизм, махизм, научная логика, прагматизм, семантическая философия, аналитическая философия, структурализм, герменевтика.*

**Alikram TAGIEV**

## NEOPOSITIVISM: LOGICAL AND LINGUISTIC DIRECTIONS

**Summary**

In the work it is noted that the problems of language and logic are worked out in different philosophical trends which it is possible to combine under meaning of positivism. Here the data on initial and subsequent itages of positivism, their representatives distinguishing peculiarities, place and role in modern philosophy arc offered.

**Keywords:** *neopozitivizm, logic, linguistics, emprocritisizm, maxizm, scientific logic, pragmatism, semantic philosophy, analytical philosophy, structuralism, hermeneutics.*